**Beynəlxalq əməkdaşlığa dair ümumi məlumat**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi yarandığı gündən etibarən qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələri üzrə beynəlxalq əməkdaşlığa xüsusi önəm vermiş, bu istiqamətdə bir sıra nüfuzlu beynəlxalq və regional təşkilatlarla əlaqələr qurmuşdur. Agentlik BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Avropa İttifaqı (Aİ), “Bitki Mühafizəsi haqqında” Beynəlxalq Konvensiya (IPPC), Bitki Mühafizəsi üzrə Avropa və Aralıq Dənizi Təşkilatı (EPPO), Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı (WOAH), Kodeks Alimentarius Komissiyası (CAC), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası (IFC), Asiya İnkişaf Bankı (ADB) kimi təşkilatlarla əməkdaşlıq etmiş, birgə layihələr həyata keçirmiş və bu istiqamətdə fəaliyyətini davam etdirməkdədir.

Eyni zamanda Agentlik tərəfindən bir sıra ölkələrlə ikitərəfli formatda əməkdaşlıq qurulmuş, qarşılıqlı səfərlər təşkil olunmuş, sazişlər, anlaşma memorandumları və digər sənədlər imzalanmış, həmçinin mövcud hökumətlərarası komissiyalar çərçivəsində qida təhlükəsizliyi məsələləri üzrə sıx əməkdaşlıq aparılmışdır.

Agentliyin Beynəlxalq Əlaqələr Şöbəsi, qurumun beynəlxalq müstəvidə səmərəli təmsilçiliyini, xarici tərəfdaşlarla əməkdaşlığın qurulması və genişləndirilməsini, eləcə də beynəlxalq və yerli layihələrin əlaqələndirilməsini təmin edən əsas struktur bölmədir.

Şöbə ilə əlaqə üçün elektron ünvan: international@afsa.gov.az